ŞAİR VƏ DRAMATURQ HÜSEYN CAVİDİN YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR

Gəncə Dövlət Universitetində böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin anadan olmasının 136 illiyinə həsr edilmiş yubiley tədbiri keçirilib. İlk öncə tədbir iştirakçıları Hüseyn Cavidin həyat və yaradıcılığına həsr olunmuş videoçarxı izləyiblər. Universitetin humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva bildirib ki, Hüseyn Cavidin yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan ibarət olub. Yeni nəslin düşüncəsində, dünyagörüşündə Cavid obrazının canlanmasında, onun müasirimizə çevrilməsində ulu öndər Heydər Əliyevin böyük xidmətləri vardır. Ümummilli liderin təşəbbüsü ilə 1982-ci ildə dramaturqun nəşinin Azərbaycana gətirilərək doğulduğu Naxçıvan torpağında dəfn edilməsi ədəbiyyatımız, mədəniyyətimiz, xalqımız üçün əlamətdar hadisə olmuşdur. Məhz Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə 1996-cı ildə Hüseyn Cavid məqbərəsi tikilib, Bakıda Hüseyn Cavidin ev-muzeyi açılıb. Ulu öndər Heydər Əliyevin ədibin irsinə verdiyi yüksək dəyər Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Belə ki, görkəmli dramaturqun 135 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsinə dair Sərəncamın imzalanması Hüseyn Cavid irsinə diqqətin göstəricisi olduğunun nümunəsidir.

Dramaturqun həyat və yaradıcılığından danışan alimlər onun fəaliyyətə şeirlə başladığını, ilk pyesi "Ana"nı 1910-cu ildə yazdığını bildiriblər. Qeyd edilib ki, 1937-ci ilədək 20-dən çox pyes yazan Cavid Azərbaycan ədəbiyyatında mənzum dramın əsasını qoyub. Onun yaradıcılığındakı fəlsəfi və tarixi faciələr Azərbaycan dramaturgiyasında yeni mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da təsir göstərib. Çıxışçılar sənətkarın ədəbiyyatımızda mühüm rolundan, şair, dramaturq və istedadlı pedaqoq kimi yaradıcılığından söz açaraq, "İblis", "Peyğəmbər", "Şeyx Sənan" və digər əsərləri ilə Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutduğunu vurğulayıblar.

Dahi sənətkarın zəngin irsinə "Keçmiş günlər", "Bahar şəbnəmləri" şeirlər silsiləsi, "Azər", "Korneyzən" poemaları, "Ana", "Maral", "Şeyx Sənan", "İblis", "Şeyda", "Uçurum", "Afət", "Peyğəmbər, "Topal Teymur", "Knyaz", "Səyavuş", "Xəyyam", "İblisin intiqamı" dramları, ədəbi, elmi, ictimai baxışlarını əks etdirən məqalələri, məktubları daxildir. "Atilla" (Gözəl Eyida), "Çingiz", "İblisin ilhamı", "Telli saz", "Şəhla", "Koroğlu" adlı əsərləri isə müsadirə olunub.

Bildirilib ki, "Mənim Tanrım gözəllikdir, sevgidir" - deyən Hüseyn Cavid dramaturq olmazdan öncə romantik şair, sevgi və gözəllik aşiqi kimi tanınıb. Onun poeziyasında dərin həyat fəlsəfəsi, sağlam məntiq, insan kamalına möhkəm inam öz əksini tapıb. Diqqətə çatdırılıb ki, Cavid XX əsrdə Azərbaycanda türkçülük məfkurəsini daha yüksək zirvəyə qaldıran böyük ideoloq və bu ideyaları ədəbiyyata gətirən dahi şəxsiyyət olub.

Tədbirin sonunda Hüseyn Cavidin əsərləri əsasında tələbələr tərəfindən hazırlanmış bədii hissə təqdim olunub.

Zabit XƏLİLOV,
"Respublika".

Respublika.- 2018.- 21 dekabr.- S.6.